**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BEYNƏLXALQ İNFORMASİYA MƏKANINDA YENİ MEDİA VƏ ONUN AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ PROSESLƏRƏ TƏSİRİ

İxtisas: 5720.01- "Jurnalistika"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Elnarə İslam qızı Allahverdiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2022**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq jurnalistika və informasiya siyasəti" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbərlər:** filologiya elmləri doktoru, professor
**Nəsir Abbas oğlu Əhmədli**

tarix elmləri doktoru, professor
**Ağalar Nəriman oğlu Abbasbəyli**

**Rəsmi opponentlər:** siyasi elmləri doktoru, dosent
**Xalid Qüdrət oğlu Niyazov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Elnur Bəybala oğlu Hacalıyev**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Rufiz Rəhim oğlu Qonaqov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BFD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: Akademik
________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının
elmi katibi: siyasi elmlər doktoru, professor əvəzi
________________ **Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın
sədri: siyasi elmlər doktoru, professor
________________ **Hikmət Baba oğlu Məmmədov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonları – XXI əsrin əvvəllərində informasiya və kommunikasiya texnologiyaları sahəsində baş vermiş inkişaf cəmiyyətin sosial həyatının bir çox istiqamətlərində mühüm elementə çevrilmiş və böyük çoxluq tərəfindən istifadə olunan, ictimai yaşam, vərdiş və davranışları özünəməxsus formada dəyişdirən yeni medianın meydana çıxmasına səbəb olmuşdur. Real vaxt rejimində, qarşılıqlı təsirə söykənən və çoxtəbəqəli struktura malik rəqəmsal texnologiyanın "interaktiv məhsulu" hesab olunan yeni media İnternet şəbəkəsi sferasında tənzimlənərək ictimai-siyasi əlaqə prosesindəki rolunu genişləndirən aktual məsələ kimi elmi və siyasi maraq kəsb edir. Tədqiq olunan problematikanı aktual edən amilləri aşağıdakı kimi qruplaşdırmaq olar.

*Birincisi,* siyasi, sosial və iqtisadi sahələrdə informasiyanın hazırlanması, emalı və bəlli auditoriyaya çatdırılması istiqamətində ənənəvi proses və vasitələri əhatə edən yeni media yeni istehsal sahəsi yaratmışdır. Böyük auditoriyanı əhatə edən yeni medianın nəzəri-elmi və praktik cəhətdən diqqəti cəlb edən başlıca cəhəti, onun ənənəvi medianın növləri ilə müqayisədə üstünlüklərə malik olmasıdır.

*İkincisi,* yeni informasiya proseslərinin sürətli inkişafı qlobal informasiya məkanının və cəmiyyətinin formalaşması sahəsində yeni siyasi münasibətlər sisteminin meydana gəlməsini zəruri edir. Cəmiyyətin həyatına dərindən təsir edən, bir çox dəyişikliyə səbəb olduğu iddia edilən İnternetin, eləcə də yeni medianın ictimai və siyasi sferaya təsir etməməsi mümkün deyil.

*Üçüncüsü,* yeni medianın siyasi dəyişikliyə səbəb olması siyasət sahəsində "iştirakçı demokratiya"nın və yeni bir sosial məkanın formalaşması ilə bağlı fikirlərə yol açmışdır. Yeni media ənənəvi media tərəfindən yaradılmış ictimai rəy sahəsindəki məhdudiyyətləri aradan qaldırdırmış və nəticədə, hər kəsin iştirakına şərait yaradılan yeni cəmiyyət yaxud "müqabil cəmiyyət" formalaşmışdır.

*Dördüncüsü,* yeni media ölkəmizdə ictimai-siyasi proseslərə təsir edən və istiqamət verən aktual amillərdən hesab olunur.

Azərbaycanda 2016-cı il aprel döyüşləri, 2018-ci il prezident seçkisi, 2019-cu ildə başlayıb 2020-ci ildən geniş kütlələr arasında yayılaraq bütün Yer kürəsini cənginə alan Koronavirus pandemiyası və ölkəmizin şanlı tarixinə 2020-ci ildə ən önəmli hadisə kimi yazılan Azərbaycan xalqının Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi bu baxımdan yeni medianın gücünün sınanıldığı hadisələr olaraq dəyərləndirilməkdədir.

*Beşincisi,* güclü təsir imkanlarına və mexanizmlərinə malik zaman və məkandan asılı olmadan istifadəçiləri sonsuz informasiya ilə təmin edən İnternet və yeni medianın vətəndaşların siyasi proseslərdə iştirakını texniki baxımdan asanlaşdırması, sosial media vasitəsilə müzakirə platforması yaratması, alternativ səsverməni və müxtəlif növ fikir və ideyaları özündə ehtiva etdiyi üçün cəmiyyəti diversifikasiyaya məruz qoyması, bu yolla da siyasi sistemi demokratikləşdirməsi mövzunu aktual edən amillərdəndir.

*Altıncısı,* Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev media və demokratiya, söz və fikir azadlığına hər zaman yüksək qiymət vermişdir: *"Bizim dövlət siyasətimizin əsas məqsədlərindən biri Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, KİV-in maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, onların imkanlarından respublikada hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsindən ibarətdir"*[1]. Bu baxımdan, müstəqil siyasi şüurun formalaşmasına xidmət edən yeni medianın ifadə vasitələri mövzunu tədqiqata sövq edən məsələlərdəndir.

XXI əsrin atributlarından biri olan yeni media keçən əsrin son rübündən dünya tədqiqatçılarının əsas araşdırma obyektlərindən birinə çevrilmişdir. Hələ 1964-cü ildə media anlayışının elmi izahını verən McLuhan ənənəvi medianın prinsip və funksiyalarını göstərərək onu siyasətin idarə olunmasında başlıca qüvvə kimi dəyərləndirmişdir. Keçən yüzilliyin 80-90-cı illərindən etibarən

---

[1] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Ə.Əliyev. – Bakı: Azərnəşr, -c.23. -2008. –s .480.

McLuhan, Micheal Heim, Andrew J.Glass, Fernback Jan, David Porter, Robert M. Shields yeni media və siyasət əlaqələrini araşdıran siyasi tribuna kimi medianın əhəmiyyətini göstərən və internet əsrinə keçidin təsvirini yaradan müəlliflər sırasına daxildir.[2]

Əsrin əvvəllərindən etibarən veb texnologiyasının özəlliklərini, sosial medianın yaranması və azad ifadə platforması kimi formalaşma mərhələlərinin tədqiqi və sosial media vasitəsilə siyasi proseslərdə iştirak məsələləri Brown Rob, Tim O'Reilly, Best Samuel J. and Krueger Brian S. və başqalarının əsərlərində öz əksini tapmışdır.[3] Son dövrlərdə isə tədqiqatçılardan Vahab Göksu, Himmet Hülür, Cem Yaşın, Burak Doğu və başqaları sadəcə yeni medianın özəlliyini deyil, bu anlayışın cəmiyyətin həyatında yaratmış olduğu dəyişiklikləri, xüsusən siyasi proseslərdəki rolunun öyrənilməsinə öz töhfələrini vermişlər.[4]

Rusiya alimlərindən O.Stins, Van Fuxt, Natalya Loseva, Anton Denikin və başqaları yeni medianı jurnalistika sahəsinə gətirdiyi yeniliklər və ictimai rəyi formalaşdıran başlıca vasitə baxımından tədqiq etmişlər.[5]

---

[2] McLuhan, M. Understanding Media: Extension of Man. - New York: McGraw-Hill, - 1964. - 396 p.; Heim, M. The Metaphysics of Virtual Reality. - Oxford: Oxford University Press, - 1994. - 208 p.; Andrew, J.G. On-line Elections: The İnternet's İmpact on the Political Process // Harward İnternational Journal of Press, Politics, - 1996,v.1, No 4, - pp.140-146. və başqaları.

[3]Rob, B. Public Relations and The Social Web: How to Use Social Media and Web 2.0 in Communication . - Philadelphia: Kogan Page, - 2009. - 182 p.; O'Reilly, T. What is Web 2.0. Design Patterns and Business Models for the Next Generation of Software // MPRA Munich Personal RePEc Archive. MPRA Paper No.4578, - German: University Library of Munich, - March, - 2007. v.65, No 1, - pp.17-37.; və başqaları.

[4]Göksu, V. Kamusal Alan ve Siyasal Katılma Mecrası Olarak Sosyal Medya / V.Göksu. - Konya: Çizgi Kitabevi, - 2016. - 206 s.; Himmet H. Yeni Medya Geleceğin Gazeteciliği / H.Himmet, C.Yaşin, - Ankara: Ütopya Yayınevi, - 2017. - 352 s.; Siyasetin Yeni Hali: Vaka-i Sosyal Medya / Editör: H.Tanıttıran - İstanbul: Kalkedon Yayınları, - 2014. - 170 s.; Yalçın, F.G. Küçük İşletmeler için Sosyal Medya / F.G.Yalçın. -İstanbul: Ezgi Matbaacılık, 3.Baskı, - 2018. -324 s. və başqaları.

[5]Стинс, О. Ван Фухт Д. Новые Медиа / О.Стинс, Д.Ван Фухт // Вестник Волгоградского государственного университета, - Россия: Волгоград, -2008,

Yeni media anlayışının formalaşması tam mənada əsrin əvvəllərinə təsadüf etsə də, onun təsir imkanları zamanla artmış, bu səbəbdən alimlər üçün yeni araşdırma mövzusu məhz bu dövrlərdə diqqəti cəlb etməyə başlamışdı. Ölkəmizdə isə yeni media tədqiqatçıların maraq dairəsində olsa da, xaricdə olduğu qədər dərin və geniş təhlilə rast gəlinmir. Bununla belə, Aynur Bəşirli, Osman Gündüz, Qulu Məhərrəmli, Zaur Babayev və başqalarının elmi əsərlərində və dərs vəsaitlərində mövzu ilə bağlı müəyyən epizodlara rast gəlinir. Yeni dövr informasiya cəmiyyəti və bu cəmiyyətin formalaşdırdığı, demokratik dəyərlərə və pluralizmə əsaslanan media sisteminin elmi-nəzəri təhlili məsələlərində əhəmiyyətli tədqiqatlar sırasında Aynur Bəşirlinin "Yeni media", Hikmət Babaoğlunun "İnforimperializm və media" əsərlərini qeyd etmək olar.[6]

Mövzunun yeniliyi və tətbiqində müxtəlifçalarlılıq bir çox tədqiqatçıların diqqətini cəlb etməkdədir. İctimai-siyasi proseslərlə bağlılığı, cəmiyyətin həyatındakı dəyişikliklərə birbaşa nüfuz etməsi bəzi araşdırmaçıların öz əsərlərində mövzu ilə əlaqəli axtarışlar aparmasına səbəb olmuşdur. Həmid Vəliyev, Nəsir Əhmədli, Sabir Məmmədli, İlham Mazanlı, Vüqar Əliyev informasiya cəmiyyəti, onun təsir obyektləri, yeni media ilə ənənəvi medianın qarşılıqlı əlaqələri, informasiya ilə manipulyasiya, beynəlxalq media sistemi, media ilə siyasi proseslərin təsir mexanizmləri kimi mövzuları

---

серия 8, вып 7, - с.98-106.; Как новые медиа изменили журналистику 2012—2016 / Под редакцией С.Балмаевой, М.Лукиной . - Екатеринбург: Гуманитарный университет, - 2016, - 304 с.; Деникин, А.А. О некоторых особенностях новых медиа // Художественная культура. Электронное периодическое рецензируемое научное издание, - 2014. серия 4, вып. 13, - 8 с.

[6]Bəşirli, A.Yeni Media Jurnalistikası / A.Bəşirli, X.Cavadova, S.İzzətli - Bakı: Avropa Şurası, - 2017. - 67 s.; Gündüz, O. İnternet. Azərbaycan internet resursları / o.Gündüz. - Bakı: Multimedia mərkəzi, - 2010. - 416 s.; Məhərrəmli, Q. Jurnalistikanın əsasları / Q.Məhərrəmli. - Bakı: Qanun, - 2012. - 436 s.; Babayev, Z. Azərbaycan media mühitində onlayn jurnalistika. Dərs vəsaiti. / Z.Babayev. - Bakı: Bakı Universiteti, - 2018. - 245 s.; Babaoğlu, H. İnfoimperializm və media / H.Babaoğlu. - Bakı: "MSA", - 2013, - 192 s.

tədqiq edərək araşdırmış, gəldikləri nəticələri elmi ictimaiyyətin diqqətinə çatdırmışlar.[7]

Media və siyasət əlaqələrinin əhatə dairəsi xeyli geniş olduğundan Azərbaycanda və dünyada gedən siyasi proseslərin tarixi, təhlili, proqnozları ilə bağlı Əli Həsənov, Ağalar Abbasbəyli, Arif Ağarzayev, Novruz Bəkirov, Rövşən Nağıyev politologiya elminin nəzəri müddəalarını, ictimai rəyə təsir prinsiplərini, təbliğat vasitəsi kimi medianın siyasi proselərdəki rolunun müəyyənləşməsində mühüm elmi işlər görmüşlər.[8]

Beləliklə, problemlə bağlı mövcud elmi ədəbiyyatın təhlili əsasında müəllif göstərir ki, Azərbaycanda mövzu müxtəlif aspektlərdən öyrənilsə də, məhz yeni medianın ictimai-siyasi proseslərə təsiri araşdırılmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi beynəlxalq cəmiyyətdə baş verən sosial-siyasi proseslərin təşkilində yeni medianın nəzəri-metedoloji aspektləri, predmeti isə İnternet jurnalistikası, sosial media, sosial şəbəkələr və digər İnternet resurslarının cəmiyyətdəki siyasi proseslərin dinamikasına təsirinin siyasi məzmun və xüsusiyyətləri məsələləridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi siyasət və ictimai rəy dəyişərkən yeni media və onun növlərinin, xüsusilə də sosial medianın, rolunu və sosial media vasitəsilə həyata keçirilən

---

[7]Vəliyev, H. Xarici ölkələrin jurnalistikası tarixi. Dərslik. / H.Vəliyev. - Bakı: Tuna, - 2014. - 640 s., Əhmədli, N.A. Kütləvi informasiya vasitələri xaricə siyasi təbliğat sistemində / N.A.Əhmədli. - Bakı: Bakı Universiteti, - 2004. - 76 s.; Məmmədli, S. Avropa Şurası və ATƏT-in media siyasəti / S.Məmmədli. - Bakı: Elm və Təhsil, - 2018. - 168 s.; Mazanlı.İ. KİV millətlərarası və dövlətlərarası münasibətlərin təkmilləşdirilməsi faktoru kimi / İ.Mazanlı. - Bakı: Renessans, - 2017. - 624 s.; Əliyev V. Azerbeycan internet medyasında bilgi manipülasyonu problemi: neticeler ve çözüm yolları // İletişim Çalışmaları Dergisi. İstanbul Aydın Üniversitesi. - 2016, cild 2, №2, - s.117-126.

[8] Həsənov, Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti / Ə.Həsənov. - Bakı: Azərbaycan, - 2005. - 752 s.; Abbasbəyli, A.N. Dünya siyasəti (XX əsrin ikinci yarısı-XXI əsrin əvvəlləri) / A.N.Abbasbəyli. - Bakı: Nurlar, - 2011, - 584 s.; Ağarzayev A., Bəkirov N., Nağıyev R. Politologiya və beynəlxalq münasibətlər / A.Ağarzayev, N.Bəkirov, R.Nağıyev - Bakı: Hərbi Nəşriyyatı, - 2014, - 320 s.

istiqamətləndirmə prosesinin təsirini müəyyənləşdirməkdən ibarətdir. Bu məqsədi çatmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

-Bugünədək aparılmış tədqiqat işlərində yeni medianı cəmiyyətlərin sosial-siyasi proseslərin subyekti qismində müəyyən edən nəzəri və metodoloji müddəaların mahiyyətini konseptual şəkildə təhlil etmək; Azərbycanda siyasi kommunikasiya sistemində yeni medianın rolunu müəyyənləşdirmək, sosial-siyasi proseslərin inkişaf dinamikasının təsirinin xarakterik xüsusiyyətlərini aşkarlamaq;

-Azərbaycanda və beynəlxalq məkanda yeni medianın fəaliyyətinin siyasi-hüquqi tənzimlənməsi vəziyyətini dəqiqləşdirmək; cəmiyyətdə ictimai-siyasi subyektlərin və medianın fəaliyyətinin məzmununu və qarşılıqlı münasibətlərini araşdırmaq; siyasi proseslərdə yeni medianın iştirak mexanizmini, forma və metodlarını öyrənmək;

-Siyasi düşüncəni və ictimai rəyi formalaşdıran elementlərin əhatə dairəsini və təsir mexanizmini müəyyənləşdirmək; siyasi və ictimai rəyi formalaşdıran qurumların fəaliyyətində yeni medianın funksiyalarını araşdırmaq; Azərbaycanda sosial medianın yaratdığı müsbət yaxud da mənfi reaksiyanın siyasi və ictimai vəziyyətin dəyişdirilməsi prosesinə təsirini öyrənmək;

-Ənənəvi və yeni medianın oxşar və fərqli funksiyalarını müəyyən etmək; sosial medianın yaratdığı və istiqamətləndirdiyi vahid icitmai rəyin güc qaynağı kimi rolunu və idarə olunmasını izləmək; ölkədə və beynəlxalq siyasi proseslərdə yeni medianın dominant siyasi kommunikasiya kanalı rolunu oynadığını əsaslandırmaq;

-KİV-lə dövlət, hakimiyyət və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı fəaliyyətlərinin təkmilləşdirilməsi üçün müvafiq tövsiyələr işləyib hazırlamaq və s.

**Tədqiqat metodları.** Dissertasiya işində siyasi aktorların müxtəlif zamanlarda etdiyi çıxışların müqayisəli təhlili ilə siyasi fikir və proseslərdəki dəyişikliklər barədə mülahizələr üzərində dayanmağa imkan verən müşahidə, müqayisə və kontent-analiz metodundan istifadə olunmuşdur. Sorğu metodu istifadəçilərin yeni

media vasitəsilə siyasi proseslərdə iştirakının və bu proseslərə qoşulma aktivliyinin öyrənilməsinə imkan vermişdir.

Araşdırmada konkret elmi aspektlərin müəyyən edilməsi məqsədilə ümumelmi informativ yanaşmalara, problemin öyrənilməsi və işıqlandırılması üzrə yerli və xarici elmi tədqiqat əsərlərində istifadə olunmuş metodoloji və elmi nəticələrə, ardıcıllıq və sistemlilik metodlarına müraciət edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. Qlobal informasiya məkanında yeni medianın inkişaf meylləri vətəndaşları siyasi proseslərdə iştiraka təşviq etməkdədir;
3. İrqi və dini ayrıseçkilik, miqrasiya, beynəlxalq təhlükəsizlik, ətraf mühitin qorunması kimi bir sıra qlobal problemlərin həllində yeni medianın təzahürü geniş miqyas alır;
4. Seçki prosesində yeni medianın yaratdığı fərqli dinamik rəqabət seçki modelini dəyişdirmişdir;
5. Demokratik dəyərlərin formalaşmasında yeni medianın təsir mexanizmi siyasi etirazlar və təşkilatlanmada vahid tribunadan çıxış etmək imkanı yaradır;
6. Yeni media dövründə Azərbaycanda dövlət strukturlarının fəaliyyəti rəqəmsal formatda transformasiya olur;
7. Azərbaycanda yeni medianın siyasi təsiri, rolu, gətirdiyi yeniliklər müasir siyasi mühitin formalaşmasına zəmin yaradır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada tədqiq olunan yeni media və onun ictimai-siyasi proseslərə təsiri məsələlərinin elmi yeniliyi bir neçə istiqamətdə verilmişdir:

- Azərbaycanda siyasi xəbərlərin yaradılması və yayılmasında yeni medianın təsiredici amilə çevrilməsi müəyyən tarixi hadisələr əsasında əsaslandırılmışdır;
- Müasir dövrdə siyasi aktorların informasiyanı gizli saxlamaq imkanlarının məhdudlaşdırılması dünya liderlərinin sosial mediadan istifadə potensialı ilə müəyyən edilmişdir ;
- Yeni medianın demokratik yönümlü siyasi rejimləri daha şəffaf etməsi və hesabat vermə öhdəliyini artırması siyasi etirazların timsalında təhlil edilmişdir;

- Siyasətçilərin davranışına təsir edən əsas faktorlardan biri kim Yeni medianın siyasi qütbləşmələrə səbəb olması veb texnologiyasının mexanizmi ilə əsaslandırılmışdır;
- Azərbaycanda yeni medianın iki mühüm cəhəti: istifadənin əlçatanlığı və istifadəçi tərəfindən yaradılan məzmunun müxtəlifçalarlılığı ilə siyasətçilərin geniş auditoriyaya müraciəti aktorların fəaliyyəti ilə təhlil edilmişdir;
- Yeni medianın təbiətindən irəli gələn və dezinformasiyaların yayılmasına şərait yaradan bərabərzamanlı fəaliyyət prinsipləri və auditoriyaya təsiri müəyyənləşdirilmişdir;
- İnsanların seçkidə iştiraka təşviqi, dövlət məmurları ilə ünsiyyətə girmə tendensiyası, etiraz hərəkatlarına könüllü daxil olma kimi bir sıra siyasi fəaliyyətlərə cəlb edilməsi ABŞ və Qərb dövlətlərinin seçki kampaniyaları əsasında təhlil edilmişdir;
- Avtoritar rejimlərdə yeni medianın təzyiq və təbliğat vasitəsi kimi istifadə strategiyaları Yaxın və Orta Şərqdəki siyasi hərəkatların timsalında əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada irəli sürülmüş müddəalar, nəzəri ideyalar və əldə edilmiş nəticələr yeni araşdırma sahəsi olan siyasi proseslərin təşkilində yeni texnologiyaların tətbiqi çərçivəsində gələcək tədqiqatlar üçün zəmin ola bilər.

Dissertasiyanın materialları media subyektləri, xüsusilə siyasi jurnalistika ilə məşğul olan praktik jurnalistlər və yeni media tədqiqatçıları üçün mənbə ola bilər. Dissertasiya materialları beynəlxalq jurnalistika sahəsində ixtisaslaşan mütəxəssislərin hazırlanmasında, həmçinin ali təhsil müəssisələrində yeni media, sosial media, media və siyasət kurslarının tədrisi, eləcə də bu sahədəki araşdırmalar zamanı istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və nəticələri müəllifin mövzu ilə bağlı Azərbaycanda və xaricdə nəşr edilən nüfuzlu elmi jurnallarda dərc edilmiş məqalələrində, beynəlxalq elmi-praktik konfranslardakı tezis və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Bakı Dövlət Universiteti.

**Disertasiya işinin strukturu.** Dissertasiya giriş (20000), I fəsil (60000), II fəsil (120000), III fəsil (100000), nəticə (20000) və istifadə edilmiş ədəbiyyat siyahısından (42000) ibarətdir. Tədqiqat işinin ümumi həcmi 188 səhifə, 362000 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Yeni media və sosial-siyasi proseslər: tədqiqata nəzəri-metodoloji yanaşmalar"** adlanan birinci fəslində əsasən yeni media anlayışı, formalaşması, onun xüsusiyyətləri, funksiyaları təhlil edilərək ənənəvi media ilə ümumi və fərqli cəhətləri ortaya qoyulmuş, internet anlayışının texnoloji baxımdan inkişaf prosesi, sosial medianın yaranması və formalaşması real faktlar nöqteyi-nəzərindən qələmə alınmışdır.

**"Yeni medianın formalaşması və fəaliyyət prinsipləri"** adlanan birinci paraqrafda veb texnologiyasının transformasiyası və yeni medianın prinsipləri tədqiq edilmişdir. Formalaşma dövründə yeni medianın hüdudlarının müəyyənləşdirilməsi, ənənəvi mediadan yeni mediaya keçid prosesinin mərhələləri əsasən İnternetdən istifadə imkanlarının genişləndirilməsi ilə müəyyən olunmuşdur.

Qərb tədqiqatçılarının yeni mediaya aid etdikləri kateqoriyaları sistemləşdirdikdə mübahisəli məslələr ortaya çıxmaqdadır. Yeni media anlayışına daxil olan elementlərin ümumi özəlliyi onun informasiya kommunikasiya texnologiyalarının inkişafı ilə vəhdət təşkil etməsindən irəli gəlir. Yəni, yeni medianın populyar anlayışı onun kompüterdən istifadə edərək istehsalına deyil, paylanmasına və təqdiminə əsaslanır. Fərqli yanaşmalar da mövcud idi. İrlandiyalı alim Stephen Quinn jurnalistikanın gələcəyini nə kağız nə də elektronda deyil, məhz informasiyanın özündə görürdü. Yeni medianın hüdudlarını müəyyənləşdirərkən belə qənaətə gəlmək olar ki, yeni media iki ayrı-ayrı tarixi trakyektoriyanın (hesablama və media texnologiyasının) konvergensiyasını təşkil edir.

Yeni medianın fəaliyyəti ilə bağlı Azərbaycan və Qərb tədqiqatçıları müxtəlif prinsiplərin olduğunu göstərmişlər. Amerikalı tədqiqatçılar Nicholas Gane və David Beer yeni medianın şəbəkələşmə, informasiyayayma, arxivləşdirmə, interaktivlik,

simulyasiya adlı beş konsepsiyasını müəyyənləşdirmişlər. Digər bir amerikalı tədqiqatçı Lev Manovich fərqli yanaşma ortaya qoyaraq yeni medianın interaktivlik və hipermətnlilik kimi funksiyalarını və rəqəmsal təqdimat, modulluluq, avtomatlaşdırma, dəyişkənlik, mədəni kodlaşdırma kimi beş prinsipinin olduğunu irəli sürmüşdür. Azərbaycanda yeni medianı tədqiq edən Aynur Bəşirli isə "prosumer" anlayışından bəhs edərək yeni medianın istifadəçi tərəfindən yaradılan məzmununa diqqət çəkmişdir.

Müəlliflərin konsepsiyalarının təhlili göstərir ki, mövcud yeniliyin jurnalist peşəkarlığına mənfi təsiri diqqəti daha çox cəlb edir və təsadüfi deyil ki, yeni medianın formalaşdığı dövrdə İngiltərənin böyük media şirkəti olan "Sky News"un rəhbərliyi peşəkarlığı qorumaq naminə öz işçilərinə bir müddət sosial mediadan istifadəyə qadağa qoymaq məcburiyyətində qalmışdır.

"**Sosial medianın auditoriyaya təsir mexanizmləri"** adlanan ikinci paraqrafda yeni dövr texnologiyası sayəsində həyatımıza daxil olan sosial media anlayışı, onun vermiş olduğu imkanlar, yaratdığı təhlükələr, üstünlükləri və mənfi cəhətləri araşdırılmış, sosial əlaqənin bu yeni formasının təqdim etdiyi yeniliklər müəyyənləşdirilmişdir.

Yeni media texnologiyası birtərəfli informasiya yayımından, ikitərəfli və bərabər zamanlı informasiya yayımına çevrilərək istifadəçilərin ixtiyarına verilən bir media sistemidir. Daha aydın desək, zaman və məkan məhdudiyyətinin aradan qaldırıldığı əlaqə formasıdır. Texnoloji inkişafın nəticəsi olan sosial əlaqənin bu forması sözlər, görüntülü materiallar, səsli effektlərdən təşkil olunmuş quruluşa malikdir.

Alman tədqiqatçı Torsten Kvanta görə KİV yeni mediada öz təzahürünü "onlayn jurnalistikası" kimi tapır. Bu, jurnalistikanın elə bir növüdür ki, burada məlumatlar onlayn formada dərc olunur və ilk nümunələri də KİV-in internetdə dərc edilməsi ilə yaranıb.

Tədqiqatda yeni medianın auditoriyaya təsiri fərdi, sosial, iqtisadi, hüquqi və siyasi olmaqla beş aspektdən araşdırılıb. Yeni medianın insanlara fərdi təsiri üç formada təsnifləndirilir: virtual aləmdə rəqəmsal kimliklərin yaradılması (rəqəmsallıq), interaktiv kommunikasiya imkanları ilə ictimailəşmə (qarşılıqlı əlaqə) və

zaman və məkan sərhədsizliyinin yaratdığı üstünlüklər hər bir şəxsə fərdi formada təsir edir.

Yeni medianın sosial təsiri istifadəçilərin sosiallaşaraq qruplar yaratması və virtual icmalar meydana gətirməsi kimi başa düşülür.

Yeni medianın iqtisadi təsirinə gəldikdə, reklam və marketinq, piyar kampaniyalarının, ticarət və alış-verişin onlayn məkan köçürülməsi yeni medianın iqtisadi təsirinin nəticəsi kimi qiymətləndirilir.

Bu gün mübahisəli məsələlərdən bir də internetin hüquqi müstəvidə tənzimlənməsidir. Yeni medianın hüquqi təsiri dövlət quruculuğunun və təhlükəsizliyinin qorunmasını tələb edir. Eyni zamanda yeni media məlumat almaq və ötürmək hüququnu genişləndirmişdir.

Tədqiqat işinin əsas sütununu təşkil edən yeni medianın siyasi təsiri aktiv siyasi fəallıq, siyasi proseslərin mənzərəsinin dəyişməsi və kütlələri hərəkətə gətirmə imkanı ilə ölçülür.

Birinci fəslin "**Qlobal informasiya məkanında yeni medianın yeri, özəlliyi və inkişaf meylləri**" adlanan son paraqrafında yeni medianı səciyyələndirən, onu ənənəvi jurnalistika ilə ümumiləşdirən və fərqləndirən cəhətlərə baxış keçirilmiş, yeni medianın əsasını təşkil edən sayt yaxud vebsaytlar**,** veb arxivlər, xəbər qrupları, e-mail və digər növlərinin özəlliklərinə toxunulmuşdur.Yeni medianın başlıca xüsusiyyətlərini digitallıq, hipermətn, interaktivlik, şəbəkəlilik, virtuallıq və simulyasiya (təqlidi) olaraq müəyyənləşdirmək mümkündür.

Yeni medianın funksiyaları onu xaraketrik edən xüsusiyyətlərdəndir. İstər ənənəvi istərsə də yeni medianın funksiyaları bu və ya digər mənada oxşardır.

İnformasiyanın ötürülməsi funksiyası yeni medianın əsas funksiyasıdır. İnternet kimi geniş məkanda yayılmış informasiya müxtəlif fikirlərə açıq, obyektiv, subyektiv, ibtidai və ya orta səviyyəli ola bilər.

Yeni media öyrədici və informativ funksiyanı bir-birilə yanaşı həyata keçirir. Fərqli sosial statusa malik insanlara müxtəlif

mövzularda təlim verərərək insanları birbaşa yaxud dolayı üsulla kontentlər vasitəsilə öyrənməyə sövq edir.

Yeni medianın əyləndirici funksiyası proqramlarda informasiya və təhsildən ibarətdir. Əyləncə və informasiya birləşməsini bilgili əyləncə adlandırırlar. Eyni ilə təhsilin əyləncəli proqramlara daxil edilməsi ilə tədrisi əyləncə (edutainment) anlayışı meydana gəlmişdir.

Sosiallaşma funksiyasına gəldikdə, sosiallaşma mədəniyyətin ötürücüsüdür. Yeni media internet mədəniyyəti yaxud informasiya cəmiyyəti mədəniyyəti də adlandırılan qlobal mədəniyyətin yayılmasında və çatdırılmasında əvəzsiz rol oynayır.

Şəxsi yardım funksiyası ilə yeni iş axtarışında, bank hesablarının yoxlanmasında, bilet sifarişi, ailə, dostlar və iş yoldaşları ilə ünsiyyətdə, yeni bacarıqlara yiyələnmədə, yaxud tanımadığımız bir məkanda naviqasiya ilə yeni media hər keçən gün şəxsi ehtiyaclarımızın qarşılanmasına böyük xidmət göstərməkdədir.

Yeni medianın inkişafı siyasi medianı mürəkkəbləşdirmişdir. Ənənəvi media sabit formatını qorumağa çalışarkən vebsaytlar, bloqlar, video paylaşma platformaları, rəqəmsal tətbiqlər və sosial medianı əhatə edən yeni media davamlı olaraq dəyişərək genişlənməkdədir. Ümumi məlumatları ictimaiyyətə çatdırmaq üçün formalaşmış kütləvi informasiya vasitələri fərqli auditoriyalara əsaslanan özəl mənbələrə əsaslanır. Yeni media redaksiya və qurumların müdaxiləsi olmadan məlumatı birbaşa fərdlərə ötürə bilir. Beləliklə yeni media özünəməxsus özəllikləri ilə siyasi ünsiyyət prosesinə qeyri-sabitlik və gözlənilməzlik gətirmişdir.

Tədqiqat işinin **“Cəmiyyətdə gedən transformasiya proseslərində birgə fəaliyyət və qarşılıqlı təsir problemləri”** adlanan ikinci fəsil yeni medianın ictimai rəyin formalaşmasında mühüm vasitəyə çevrilməsi və siyasi proseslərə təsiri ilə bağlı sualların ana sütununu təşkil edir.

**“Sosial media və onun siyasi mühitə təsirinin dərinləşməsi”** adlanan birinci paraqrafda sosial mediadan siyasi məqsədlər üçün istifadə, siyasi mikrobloqlar, sosial şəbəkə saytlarında siyasi proseslərin ifadəsi, siyasi aktorların sosial media anlayışı və s. kimi məsələlərə yer verilmişdir.

Sosial medianın siyasi mühitə təsiri onun ictimai rəyi formalaşdırma özəlliyi ilə xarakterizə olunur. İctimai rəy cəmiyyətin böyük bir hissəsinin müəyyən bir mövzuda ortaq düşüncəsi şəklində ifadə edilə bilər. Türkiyədə insan hüquqları və ictimai azadlıqlar sahəsində tədqiqatlar aparmış Münci Kapaninin dediyi kimi ictimai rəy müəyyən vaxtda, mövcud münaqişəli problem qarşısında bu problemlə maraqlanan insanlar qrupuna və qruplarına hakim olan qənaətdir.

İctimai rəyin yaranmasında iki mərhələ mövcuddur. İlk mərhələ məlumatın çatdırılması, ikinci mərhələ isə çatdırılan məlumatların alınması və qəbul edilməsidir. Hər iki mərhələdə cəmiyyət tərəfindən məlumatların şüurlu şəkildə qiymətləndirilməsində yeni medianın interaktivlik özəlliyi mühüm rol oynayır. Milli maraqlara xidmət edən beynəlxalq ictimai rəyin yaradılması diplomatik tədbirlərin dəstəklənməsi və xarici fəal qrupların hərəkətə gətirilməsi zamanı bu vasitədən düzgün istifadə edilməsindən asılıdır.

Siyasi sferada ictimai rəyi formalaşdırarkən yeni medianın başlıca təbliğat vasitəsi kimi istifadə olunması artıq qəbul olunmuş gerçəklikdir. Kimball Yuanq təbliğatı, "*fikir, baxış və dəyərləri nəzarətdə saxlamaq və son mərhələdə davranışları müəyyən olunmuş istiqamətdə dəyişdirmək məqsədilə əvvəldən planlaşdırılaraq və psoxoloji metodları da özündə ehtiva edən sistematik bir sıra vasitə və simvollardan istifadə edilərək yürüdülən düşünülmüş bir fəaliyyət*" kimi xarakterizə edir[9].

Beləliklə, sosial media çoxluq tərəfindən yaradılan və hər kəs tərəfindən başa düşülən xəbərin sadə şəkildə təqdimi, yığcam və əhatəli fikirlərin vaxtaşırı təkrarı və şüuraltına yeridilməsi ilə, müəyyən birlik və qrupların təsiri altında hakim düşüncəni müdafiə etməklə önəmli bir siyasi təbliğat vasitəsi hesab oluna bilər.

Mühüm sosial media platformaları hesab olunan Facebook və Twitter-in ictimai rəyə təsir imkanlarının artması mediadan siyasi kontekstdə, o cümlədən siyasi institutlar və xalq (siyasətçilər, siyasi

---

[9]Babaoğlu, H. Dünya siyasəti və beynəlxalq münasibətlər / H.Babaoğlu. - Bakı: Çinar-Çap, -2010. - 568 s., -s.355.

partiyalar,siyasi fondlar və s.) nəzdində istifadəsini də genişləndirdi. Xüsusən, "*seçkilər zamanı siyasətçilər üçün yeni media əvəzolunmaz vasitədir".*[10]

İkinci paraqraf **"Qloballaşma prosesinin sosial mediada təzahürü"** adlanır. Burada qloballaşma prosesinə ümumi baxış, sosial medianın bu proseslə olan sintezi və onun əsas hissəsinə çevrilməsi, bunun təsiri nəticəsində baş vermiş siyasi hərəkat və inqilablarda sosial medianın yeri və rolu öz əksini tapmışdır.

Qloballaşma prosesini müəyyənləşdirən xarakterik cəhətlərdən biri sürətlə artan texnoloji inkişaf və genişlənən qlobal informasiya cəmiyyətidir. İnformasiya cəmiyyəti anlayışı müasir sivilizasiyanın inkişaf dərəcəsi kimi başa düşülür. Qlobal informasiya məkanının yaradılması ilə informasiya-kommunikasiya vasitələrinin artımı cəmiyyətin həyatında informasiya və biliyin rolunun artması ilə xarakterizə olunur.

İnformasiya məhsullarına və ya xidmətlərinə duyulan tələbat məhz insanlar arasında effektiv informasiya mübadiləsi və onların dünya informasiya resurslarına müraciətini şərtləndirir. Beləliklə beynəlxalq informasiya cəmiyyətinə keçidi zəruri edən səbəblərdən biri də internet media və ya yeni medianın inkişafı idi.

İnternetin inkişafı və formalaşması insanlarla yeni media arasındakı əlaqələri genişləndirdi. Qloballaşmış elektron əlaqələr nəticəsində insanlar arasındakı coğrafi məsafələr qısaldı. Amerikalı iqtisadçı və jurnalisti Frances Chairncross hələ 2001-ci ildə bu böyük inkişafı məsafələrin ölümü kimi ifadə etmişdir. Onun fikrincə, yeni media sosial əlaqələrimiz üçün fiziki məkanın əhəmiyyətini azaldaraq, fiziki məkanla sosial məkan arasındakı əlaqələni tamamilə aradan qaldırmaqdadır. U. Econun dünya adına "qlobal şəhər" anlayışı da göstərir ki, müasir dövrdə əlaqə yerli-lokal anlayışını sıxışdırıb çıxarmaqdadır, çünki çox asan qurulan əlaqələr şəraitində ən kiçik xəbər belə bir çox ölkə və insanlara təsir edə bilir.

---

[10]Polat, F., Subay Ö.Ö. 2014 Yerel Seçimlerinde Sosyal Medya Kullanımı: 16 Büyükşehir Belediye Başkanlığ Seçimi Örneği / F.Polat, Ö.Ö.Subay // The Journal of Academic Social Science Studies: International Journal of Social Science, y.1, №43, - 2016, - pp.149-174

Yeni medianın siyasətdə nəyə xidmət etdiyini aydınlaşdırmaq üçün qabaqcıl dünya liderlərinin fəaliyyətində sosial medianın yeri və roluna nəzər yetirmək kifayət edir. Yeni medianın üstünlüklərini öz fəaliyyətində istifadə edən ilk liderlərdən olan B.Obama siyasi fəaliyyətə sosial mediada başlayan prezidentlərdən biridir. Onun ABŞ prezidenti seçilməsində böyük rol oynamış sosial media sonradan bir çox ölkə liderlərini də bu məcraya yönəltməyə başlamışdır. D.Trapm, V.Putin və R.T.Ərdoğanın sosial mediadan istifadə anlayışları bu baxımdan diqqəti cəlb edir.

Dissertasiyanın **"Yeni media siyasi qarşıdurmaların təkanverici qüvvəsi kimi"** adlanan üçüncü paraqrafında Yaxın və Orta Şərqdə siyasi hərəkatların sosial pərdəarxası, sosial inqilabların başlanma və gedişatında yeni medianın əhəmiyyəti, o cümlədən Türkiyədə baş vermiş siyasi çevrilişə cəhddə yeni medianın yaratmış olduğu imkanlar və ortaya çıxardığı səbəblər əsas problemlər kimi müzakirəyə çıxarılır.

Sosial medianın alovlandırdığı inqilablar yeni tarixi dövrdə böyük əhəmiyyət kəsb edir. Son əsrin ən böyük hadisələrindən biri məhz Orta Şərqdə baş vermiş xalq üsyanları olmuşdur.

İnternetin ərəb dünyasındakı etiraz dalğalarının yayılmasındakı rolu, Misir və Tunisdə avtoritar rejimin devrilməsi, sosial medianın siyasi təşkilatlanma strategiyası və protestoların yayılma modellərinə təsirini göstərmişdir. Beləliklə, ayrı-ayrı fərdlərin məruz qaldığı və istifadə etdikləri digital media ilə siyasi cəlb olunmanın genişliyi mütənasiblik təşkil edir. Belə qənaətə gəlmək olur ki, İnternet sosial hərəkatlar və yerli təşkilatlarda formalaşmış aktorların kollektiv fəaliyyət repertuarını genişləndirmişdir.

Siyasətə dair ədəbiyyatlar demokratiya daxilində baş verən iğtişaşları avtoritarizmin təsiri altında baş verən etirazlardan kəskin fərqləndirir. "*Demoktatiya, adətən, ana müxalifətin öz səsini duyurmaq məqsədilə yeritdiyi siyasətin mərkəzi ünsürü hesab olunan kütləvi hərəkatlarda şiddət və zorakılığın yer almadığı siyasi etiraz*

*aksiyalarının müşahidə edildiyi sistem kimi görülür"*[11]. Avtoritar rejimdə isə bunun əksinə olaraq vətəndaş etirazını koordinasiya etmək və tənzimləmək olduqca çətindir. Əsas problemlərdən biri odur ki, avtoritar rejimlərdə elit təbəqədən fərqli olaraq, adi vətəndaşların silah, heyət və digər siyasi resurslarına nəzarət yoxdur.

Son 50 ildə dünyanın müxtəlif bölgələrində rejim əleyhinə hərəkatların kəsişən dörd beynəlxalq dalğası müşahidə edilib: Latın Amerikasında 1970-80-ci illər rejim dəyişikliyi və məşhur müxalifət; 1989-91-ci illərdə SSRİ və Şərqi Avropada komunist partiya daxilində yaranan problemlərin genişlənməsi; 1996-2005-ci illərdə Avropa və Asiyadakı postsovet ölkələrindəki "rəngli" inqilablar, və nəhayət,Yaxın Şərq və Şimali Afrikada baş vermiş protestolar.

Amerikalı politoloq M.McFaul vurğulayır ki, "demokratiyanın dördüncü dalğası"nın fərqləndirici xüsusiyyəti kimi meydana gələn kütləvi vətəndaş etiraz aksiyaları elit təbəqənin təhriki ilə yaranan demokratiyaya keçid dalğalarına bənzəmir[12].

Yaxın və Orta Şərqi araşdıran mütəxəssisləri təəccübləndirən odur ki, Tunis inqilabını yoxsul kəndli və şəhərin orta təbəqəsi ilə yadlaşmış intellektual elitanın birləşməsindən yaranan geniş sosial qüvvə koalisiyası yaratdı. Belə ehtimal etmək mümkündür ki, bu qüvvələrin bir-birinə qoşulması müasir kommunikasiya texnologiyaları və sosial media olmadan baş verə bilməzdi. Əks halda coğrafi və sosial məsafələri aşa biləcək körpü çətin ki, yaranardı.

Və nəhayət **"Müasir dövr seçki proseslərinin effektliliyinin artmasında yeni medianın iştirakı"** adlanan dördüncü paraqrafda seçki kampaniyalarının yeni modeli və metodları, bununla bağlı yaranmış olan media təşkilatları və ümumilikdə yeni medianın seçki proseslərinə təsiri araşdırılmışdır.

Seçki prosesində medianın qərəzsiz və balanslı işıqlandırma öhdəliklərinin tənzimlənməsi müsbət hal kimi qiymətləndirilsə də, son nəticədə seçkilərin işıqlandırılması forması peşəkarlıqdan və

---

[11] Skocpol, T. States and Social Revolutions; A comparative analysis of France, Russia, and China // Cambridge University Press, - 1979, - 70 p., page 56.

[12]McFaul, M. Russia's Unfinished Revolution, Political Change from Gorbachev to Putin / M.McFaul. - United States: Cornell University Press, - 2001. - 400 p.

media subyektinin müstəqilliyindən asılıdır. İctimai yayımçılar sabit qanunvericilik əsasında təsis edilməli və onların müstəqilliyinə qanunun mətni vasitəsilə təminat verilməli və qanunun ruhu vasitəsilə hörmət edilməlidir. Təcrübə göstərir ki, belə hallarda seçkilərin işıqlandırılmasının ciddi tənzimlənməsi tələb olunmur.

Bu sahədə praktik nümunələr fərqlidir. Danimarka, Finlandiya və Niderlandda özəl yayımçılar siyasi məslələrin işıqlandırılmasında heç bir öhdəlik daşımırlar. Almaniyada özəl yayımçıların verilişlərinin yayımlanması üçün prinsiplər Yayım Sazişində əks olunmuşdur. Burada deyilir ki, cari məsələlərə aid verilişlər hamılıqla tanınan jurnalistika prinsiplərinə uyğun, müstəqil və obyektiv olmalı, habelə cəmiyyətdəki fikir plüralizmini əks etdirməlidir. İsveçrədə müvafiq normalar bir qədər ətraflı işlənib hazırlanmışdır. Jurnalistlər obyektiv olmaq və fikir müxtəlifliyini əks etdirmək öhdəliyini daşıyırlar. İtaliyanın müvafiq hüquqi aktlarında göstərilir ki, özəl yayımçılar seçkilər barədə informasiya proqramlarında və xidmətlərində bərabər rəftarı təmin etməlidirlər.

Müasir dövrdə seçki kampaniyaları üçün çoxşaxəli əlaqə şəraiti mövcuddur. Media sistemi mühüm xəbərlərin geniş auditoriyaya çatdırıldığı ənənəvi jurnalistika modelindən daha dəqiq hazırlanmış, xüsusi bir kütlə seqmentini hədəfləyən məhdud yayım modelinə keçmişdir. Amerika tədqiqatlarında yeni medianın seçkidə tətbiqi mərhələləri aşağıdakı kimi təqdim edilir.

-Ənənəvi media, ənənəvi siyasət (1992-1994): yaradılmış qeyri-siyasi və əyləncə xarakterli media formaları seçkilərdə ünsiyyəti təmin edir, veb kampaniyalar isə primitivdir.

-Yeni media, ənənəvi siyasət (1996-2006): internetin inkişafı təsirli və interaktiv imkanlardan ibarət kommunikasiya kampaniyalarının yeni formalarının inkişafını asanlaşdırdı.

-Yeni media və yeni siyasət (2008-dən sonra): interaktiv informasiya mübadiləsi, şəbəkə və ictimai topluluqlar yaratmaq, əməkdaşlıq, sosial media vasitəsilə kampaniyalar üçün rəqəmli texnologiyanın genişlənmiş mürəkkəb istifadəsi müşahidə olunur.

Beləliklə, yeni media seçkilərin inkişafının vizuallığını təmin etdi və seçki müddətində onun dinamikasını operativ izləməyə imkan verdi. Yeni medianın seçki prosesindəki əsas xüsusiyyətləri

interaktivlik və auditoriya üzvlərini seçkidə iştiraka təşviqetmə qabiliyyətidir. Yeni media eyni zamanda elastikdir və uyğunlaşma qabiliyyətinə malikdir, geniş bir kampaniya çərçivəsində ehtiva oluna bilir.

**"Müasir Azərbaycan sosiumunun formalaşmasında yeni medianın iştirakı"** adlanan üçüncü fəsildə mövcud problem Azərbaycan mövqeyindən araşdırılmışdır.

**"Azərbaycanda dövlət strukturlarının fəaliyyətinin informasiya cəmiyyətinə inteqrasiyası və yeni medianın hüquqi tənzimlənməsi"** adlanan birinci paraqrafda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son on ildə imzaladığı Fərman və Sərəncamlara əsasən dövlət strukturlarının yeni mediaya adaptasiyası, fəaliyyətlərinin elektronlaşdırılması, yeni tələblərə uyğunlaşma mərhələləri, o cümlədən, yeni medianın Azərbaycanda hüquqi əsasları və "Media haqqında" yeni Qanunun şərhi verilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı və regional layihələrdə iştirakı ölkənin internetə çıxış potensialına, regional və qlobal kommunikasiyalarnın inkişaf etdirilməsinə müsbət təsir etmişdir. Ölkəmizin 2009-cu il dekabrın 21-də BMT Baş Assambleyasının 64-cü sessiyasında dəstəklənən, Qərbi Avropa ilə Şərqi Asiyanı birləşdirən transmilli fiber-optik xəttin çəkilməsini nəzərdə tutmuş"Trans-Avrasiya Super İnformasiya Magistralı" və 8 iyun 2011-ci ildə "Avropa-Yaxın Şərq İnformasiya Magistralı" layihələrində iştirakı ölkədə internetdən geniş istifadə imkanı yaratmış və milli kontentin inkişafını şərtləndirmişdir.

Müasir informasiya kommunikasiya texnologiyalarının Azərbaycanda dövlət orqanlarının fəaliyyətinə təsiri prosesi 23 may 2011-ci ildə Prezident İlham Əliyevin "Dövlət Orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanından sonra başlamışdır. 14 mart 2018-ci ildə "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" ölkə başçısının yeni Fərmanı ilə elektron xidmətlərdən istifadə sahəsində yeni mərhələnin əsası qoyulmuşdur. Fərmanda bu sahədə vahid tənzimləyici qurumun yaradılması və "Elektron hökumət"in fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı zəruri tədbirlər görülməsi nəzərdə tutulmuşdur. Ölkə başçısının Fərman və

Sərəncamları informasiya cəmiyyətinə inteqrasiya prosesini sürətləndirmək, elektron xidmətlərin səmərəli fəaliyyətini təşkil etmək, vətəndaşların dövlət və özəl sektorun xidmətlərindən isitifadə imkanlarını genişləndirmək, informasiya mübadiləsi və təhlükəsizliyinin gücləndirilməsinə xidmət etməkdədir.

12 yanvar 2021-ci ildə “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” dövlət başçısının Fərmanı ilə yeni medianın hüquqi statusu barədə mühüm bir mərhələnin əsası qoyulmuşdur. Bu Fərman ilə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxsi yaradılmışdır və onun gündəmində olan əsas məsələlərdən biri yeni medianın hüquqi tənzimlənməsi ilə bağlı boşluqların aradan qaldırılması və qanuni əsasların yaradılması idi. Bu sahədə atılan ilk addım 14 dekabr 2021-ci ildə “Media haqqında” yeni Qanunun qəbul edilməsi olmuşdur.

Qanunun birinci maddəsində göstərilir ki, “onlayn media-audiovizual media və çap mediası istisna olmaqla mətn, audio, vizual və ya digər elektrin (rəqəmsal) formada olan kütləvi informasiyanı veb-saytda yayımlayan media”dır. Qanunun altıncı fəsli “Çap mediası, onlayn media və İnformasiya agentlikləri” adlanır ki, buradan da göründüyü kimi yeni media Qanunda “onlayn media” anlayışı ilə öz ifadəsini tapmışdır.

**“Demokratiya böhranı: siyasi çəkişmələr və yeni media siyasəti”** adlanan ikinci paraqrafda siyasətin medialaşması və siyasi qalmaqallarda sosial mediadan istifadə, siyasi sistemin idarə olunmasında medianın funksiyaları, siyasət və ictimai rəyin formalaşdırılması dövründə yeni medianın təsir imkanlırı öz əksini tapmaqdadır.

Demokratiya böhranı siyasi partiyaların müəyyən sinifləri təmsil etməkdən imtina etdiyi, sağ və sol siyasi qruplar arasındakı iqtidar uğrunda mübarizədə mövcud hüdudların pozulduğu, orta təbəqənin inkişaf etdiyi cəmiyyətlərdə gündəlik həyat problemlərinin ön plana keçdiyi, dövlətin ideoloji və iqtisadi vasitələrinin öz əhəmiyyətini itirdiyi və digər bir çox hallarda ortaya çıxa bilir.

Dünya miqyasında qanun və demokratiya böhranının ortaya çıxmağında yeni kütləvi hərəkatların rolu böyükdür. İctimai rəy və

siyasətin idarəetmə əlaqələrini təmin edən media zamanla-texnologiyanın verdiyi imkanlarla bu sahələri idarə edən və istiqamətləndirən təsirə sahib olmağa başlamışdır. Ünsiyyət vasitəsi kimi media ictimai strukturların formalaşmasına təsir göstərən qüvvəyə çevrilmiş və ictimai toplumda yeni balansın yaranmasında aktiv rol oynamışdır. Bu baxımdan yeni media siyasət və cəmiyyətə xidmət göstərən, toplum tərəfindən vəzifələndirilən, alternativi olmayan bir sistem kimi nəzərdən keçirilir. Yeni mediada yaranmış fikir ətrafında təşkilatlanan kütlələr cəmiyyətin marağını istədikləri istiqamətə yönəldə biləcəklərini göstərməkdədirlər.

Siyasi sferada demokratik sistemin idarə olunmasında mühüm rol oynayan media bu prosesi idarə etmək və dəyişdirmək funksiyasına malikdir. Ənənəvi mediadan fərqli olaraq yeni media sadəcə siyasətçilərin mesajlarını xalqa çatdırmır, eyni zamanda siyasi sistemə nəzarət funksiyasını da yerinə yetirir. Ənənəvi və yeni media cəmiyyətin siyasi informasiya ilə təmin olunmasına və siyasi maraq səviyyəsinin artmasına xidmət edirlər.

Yeni siyasi fəaliyyət strategiyasında şəxs-lider siyasi partiya və siyasi qurumlardan daha irəli bir nöqtədə qərarlaşır. Mərkəzində şəxsiyyətin dayandığı siyasətdə vətəndaşın zehnindəki siyasi aktor haqqında müsbət və ya mənfi fikir müəyyənedici faktor rolu oynayır. Qərb tədqiqatlarında "Amerikanlaşma" prosesi kimi qarşımıza çıxan bu anlayışın mənbəyini isə vətəndaşın malik olduğu qavrayış təşkil edir. Xalqın siyasi partiya haqqındakı rəyini lider və onun mediadakı təmsilçisi formalaşdırır.

Qərb tədqiqatçılarına görə, əvvəlki dövrlərdə siyasi çəkişmələrin mediada işıqlandırılması xüsusi seçkin qrupların səlahiyyətində olurdu. Yeni media formatları bu monopoliyanı qırdı. Vətəndaşlar yeni media vasitəsilə çox ciddi siyasi çəkişmələri öyrənmək imkanı əldə etdilər. Belə ki, siyasi proseslərdə çəkişmələrin və skandalların rolu sosial media vasitəsilə fərqli bir müstəviyə keçmişdir. Skandal termini "*toplumda mühüm dəyərlərin, norma və etik prinsiplərin kəskin şəkildə pozulması sayəsində meydana çıxan, ictimaiyyət tərəfindən bilinən və böyük etiraza şərait*

*yaradan aksiya və hadisələri ifadə etmək üçün istifadə edilir"*[13]. Bu baxımdan, skandal anlayışı ilə degenerasiya (korlanma) və ya vəzifədən sui-istifadə anlayışları arasında müəyyən yaxınlıq olsa da onları tam eyniləşdirmək olmaz. Siyasi tribunada meydana gələn korlanma və vəzifədən sui istifadə media leksikasında skandal (qalmaqal) kimi ifadə oluna bilər. Bu xüsusiyyətinə görə, media skandallarını utandırıcı hadisələr nəticəsində baş verən və media vasitəsilə ictimaiyyətə çatdırılan, ideoloji və mədəni sahələrdə mühüm dəyişikliklərə səbəb olan şəxsi etiraz və tədbirlərin informasiya olaraq verilməsi kimi ifadə etmək olar. Siyasi sferada demokratik sistemin idarə olunması sahəsində mühüm yer tutan media bu prosesi idarə etmək və dəyişdirmək funksiyasına malikdir.

**"Yeni medianın terror təşkilatlarının fəaliyyətinə xidmət etməsi"** adlanan üçüncü paraqrafda terror fəaliyyətləri zamanı rəqəmsal texnologiyanın imkanlarından istifadə məsələləri təhlil edilmişdir. Yeni mediada qarşımıza çıxan ən böyük terror təşkilatları kimi DAEŞ, TALİBAN, Əl-Qaidə göstərildiyi və bu təşkilatların fəaliyyəti İslam dini ilə eyniləşdirildiyi halda, axtarış mühərrikləri xristian dövlətləri ilə əlaqəli olan terror təşkilatları barədə çox az, bəzən isə heç bir məlumat vermir. Görünən mənzərə müsəlmanların yaratdığı terror təşkilatlarının xristian ölkələrində törətdiyi terror aktlarından ibarətdir və bu yalnış fikir yeni media vasitəsilə şüurlara yeridilməkdədir. Məsələn, Azərbaycan və Türkiyəyə qarşı illərlə cinayət əməli törətmiş ASALA terror təşkilatı barədə internet mənbələrində məlumat yox dərəcəsindədir. Halbuki, yerli və türk tədqiqatlarında ASALA militantlarının PKK terror təşkilatının tərkibində hələ də fəaliyyətlərinə davam etdiyi ilə bağlı güclü iddialar səslənməkdədir.

Belə bir ümumiləşdirmə aparmaq olar ki, terror təşkilatı ilə mübarizə sadəcə silahlarla real məkanda aparılacaq bəsit bir hadisə deyildir. Terror təşkilatları ilə mübarizə üçün təşkilatın rəqəmsal təbliğat fəaliyyətlərinin sonlandırılması lazımdır. Beynəlxalq sosial şəbəkələr və internet saytları terror təbliğatı üçün yeni bir izləmə sistemi təkmilləşdirməli və dövlətlərdən gələn müdaxilə tələblərini

[13] Sosyal Medyada Kriz Yönetimi. http://www.sosyalmedyahaber.com 08.10.2018

dərhal yerinə yetirməlidirlər. Terror təşkilatlarının təbliğatına yönəlmiş planlı və sistemli əks-təbliğat fəaliyyətləri həyata keçirilərək insanların həqiqi məlumatları əldə etmələri və terror təşkilatlarına qoşulmaları əngəllənməlidir. Eyni zamanda, media savadlılığı dərs vəsaitləri yenilənməli, təkmilləşməli, rəqəmsal təbliğat mövzusu daxil edilərək gənclərdə terror təbliğatına qarşı maarifləndirmə formalaşdırılmalıdır. Bundan başqa dinə söykənən terror təşkilatlarının real mənasından yayındırılaraq istifadə etdikləri dini anlayışlar səlahiyyətli orqanlar tərəfindən açıqlanmalı, insanlar doğru məlumatları rahat şəkildə əldə edə bilməli, rəsmi qurumlar vasitəsilə verilən din tədrisi genişləndirilməli və gücləndirilməlidir.

Qərb siyasətçiləri və medianın bir sıra terror təşkilatları vasitəsilə İslam dininə yönəlmiş yalnış fikirləri, xüsusilə, İslam ilə terror anlayışını eyniləşdirən yanaşmalar əngəllənməlidir. Müsəlmanlara qarşı haqsız və ədalətsiz yanaşma kimi görülən “İslami terror”, “İslamçı terrorist” kimi ifadələr qərb mediasına istinad edilərkən jurnalist mətnlərindən çıxarılmalı, öz real ifadəsini tapmalıdır. Eyni hal “İslami”, “İslam dövləti”, “İslam mediası” anlayışları üçün də keçərlidir.

Mövcud faktlar göstərir ki, sosial mediada və cəmiyyətdə terroristlərin, o cümlədən terrorizmin qarşısını almaq üçün yeni və daha təsirli strategiyalar hazırlamaq lazımdır.

Üçüncü fəslin son paraqrafı **“Azərbaycanda yeni media anlayışının genişlənməsi və onun cəmiyyətə təsiri”** adlanır. Burada gündəmdə olan ictimai-siyasi məsələlərin yeni mediada əks olunması, Azərbaycan xalqı üçün önəmli məsələlərin işıqlandırılmasında yeni media subyektlərinin diqqət etməli olduğu məqamlar, media savadlılığı, jurnalist öhdəliyi və siber hücumlar tarixi hadisələr çərçivəsində araşdırılmışdır.

Sosial mediada işıqlandırılan mövzuya aidiyyatı qurumların dərhal reaksiyası, dövlət strukturlarının gündəmdə olan problemlərə ciddi yanaşması və yerində həll etməsi yeni media formatlarının Azərbaycanda ictimai məsələlərin həllində rol oynadığını göstərməkdədir.

2014 və 2016-cı illərdə baş verən Qarabağ döyüşləri, 2020-ci ildə 44 günlük Vətən müharibəsi Azərbaycanda yeni mediada çalışan

jurnalistlərin peşə məsuliyyətini və öhdəliyini anlama dövrü kimi xarakterizə oluna bilər. Hər iki döyüşdə və İkinci Qarabağ müharibəsində milli mətbuat cəbhə ilə eyni vaxtda informasiya müharibəsinə başlamışdı. Yeni medianın ənənəvi mətbuatla birgə uğurlu fəaliyyəti "Aprel döyüşləri" zamanı daha artıq hiss olunurdu. 2014-cü ildə buna müvəffəq olmayan yeni media jurnalistləri 2016-cı ildə rəsmi məlumatlara əsaslanan informasiya yayımının əhəmiyyətini anlamağa başladı. İnformasiya müharibəsində əsl uğur Vətən müharibəsi zamanı qazanılmışdır. Müharibə zamanı xalq-hakimiyyət birliyi ən yüksək səviyyədə nümayiş olunmuş, ölkədə iqtisadi-siyasi sabitlik hökm sürmüşdür.

Düşmən tərəfin yayımladığı dezinformasiyalar vaxtında təkzib olunaraq obyektiv məlumatlar dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Beləliklə, erməni kiber hücumlarının da qarşısı müvəffəqiyyətlə alınırdı. İnformasiya müharibəsində milli media təkbaşına mübarizə aparmırdı. Ölkə başçısı Prezident İlham Əliyevin güclü arqumentləri, dərin biliyi və hazırcavablığı informasiya cəbhəsində Azərbaycan mediasının ən böyük dəstəyi idi. Bir çox hallarda dövlət başçımız İlham Əliyev azərbaycanlı və xarici jurnalistlərə, dünyanın aparıcı media nümayəndələrinə müsahibələrində, beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşlərində və sosial media profillərindəki çıxışları ilə informasiya cəbhəsini təkbaşına yarmağa müvəffəq olurdu.

Beləliklə, son illərdə ölkədə baş vermiş ictimai-siyasi proseslərdə, o cümlədən 44 günlük İkinci Qarabağ Müharibəsində vətəndaş jurnalistikasının başlıca mübarizə meydanı hesab olunan yeni media ənənəvi jurnalistika nümunələri kimi rəsmi məlumatlara istinadən, xalqımızın və Azərbaycan Ordusunun ruh yüksəkliyinə xidmət göstərmişdir.

İşin **Nəticə** hissəsində tədqiqata yekun vurulmuş, yeni medianın təşviqedici funksiyası, əlçatanlığı, plüralist fikir formalaşdırması, ictimai rəyə xidmət etməsi, gənclərdə siyasi proseslərə maraq yaratması, ictimai-siyasi məsələlərlə bağlı qərarların qəbul edilməsinə və onların məzmununa təsiri, kütlələri hərəkətə gətirmə gücünün mövcudluğu kimi konseptual nəticələr əldə edilmiş və bir sıra tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Sosial media və onun auditoriyaya təsir mexanizmləri // Bakı: BDU, Dil və ədəbiyyat, - 2012. №1, - s.322-323.
2. Web 3.0- ağıllı internet və ya insanlaşmış robot // Bakı: Filologiya məsələləri, - 2012. №6, - s.134-138.
3. Onlayn jurnalistikanın əsas elementləri // Bakı: Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi. I Beynəlxalq elmi-nəzəri konfransın materialları, - 2012, s.338-343.
4. Web 2.0 və onun bəzi səciyyəvi aspektləri // Bakı: Dil və ədəbiyyat, - 2012. №2, - s.274-277.
5. Qloballaşma və siyasi fəaliyyətdə sosial media // Bakı: Tarix və onun problemləri, - 2014. №3, - s.242-246.
6. Sosial media: demokratiya platformasinin ən son modeli kimi // Bakı: Tarix və onun problemləri, - 2014. №4, - s.179-184.
7. Təhlillər çərçivəsində sosial media və siyasi kommunikasiya // Bakı: Tarix və onun problemləri, - 2015. №3, - s.219-223.
8. Yeni informasiya və kommunikasiya texnologiyalarinin inqilabi təşkilatlanmada rolu // Bakı: Tarix və onun problemləri, 2016. №4, - s.189-194.
9. Sosial media və cəmiyyət:qarşılıqlı təsir problemləri // Bakı: Tarix və onun problemləri, - 2018. №2, - s.205-210.
10. Правовые основы новых медиа в Азербайджане // Міжнародна науково-практична конференція. Сучасні виклики для суспільних наук в умовах глобалізації, - Львів: - 25 - 26 травня, - 2018, - с. 77-81.
11. The role of media in the organization of political processes // Вісник Львівського Університету. Філососько-політологічні студії. Львівський національний університет імені Івана Франка. Випуск 17, - Львів: - 2018, - с. 161-165.
12. Новое медиа и его влияние на политические процессы // Політикус. Науковий журнал. Випуск 2, - Одеса: - 2018, - с. 31-34.

13. Терроризм в новую коммуникационную эпоху // Русско итальянский международный университет. Глобальная экономика в XXI веке: роль биотехнологий и цифровых технологий. Сборник научных статей по итогам работы круглого стола с международным участием, - Москва: - 15 - 16 февраля, - 2020, - с. 193-196.
14. Терроризм в новую коммуникационную эпоху // Ministry of education and science of ukraine donetsk state university of management department of humanities. Conference information package 2nd all-ukrainian scientific and practical conference «history of ukraine in the regional and global dimensions», - Mariupol - Ukraine: - 20 February, - 2020, - pp. 11-14.
15. Международный терроризм: организация и торговля через социальные сети // Международный центр научного сотрудничества «Наука и просвещение», - Пенза: - 20 февраля 2020, - с.129-131.
16. Оцественное мнение в социальных СМИ и усиление его влияния на политическую среду // Концепции современного образования: время перемен. Сборник научных трудов. Материалы Международных научно-практических мероприятий Общества Науки и Творчества за июнь 2020 года, - Россия - Казань: - 6 июнь, - 2020, - с. 99-102.

Dissertasiyanın müdafiəsi 29 mart 2022-ci il tarixində saat$14^{00}$ –da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BFD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, Lermantov küçəsi, 74

Dissertasiya ilə  Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "28" fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.02.2022

Kağızın formatı: A5

Həcmi: 43508

Tiraj: 100